# “Zülmət saçan çıraq”




“Mücrü” nəşriyyatının “Proza” seriyasında gənc şairə, yazıçı Aytən Eyvazon (Hüseynova) yeni kitabı çox nəfis şəkildə işıq üzü görüb. Bir gənc jurnalistdən bəhs edən detektiv motivli romandan ibarət kitaba “Zülmət saçan çıraq” adlını vermişdir. Özünəməxsus, orijinal yazı tərzinə malik olan müəllif qələmə aldığı romanda göstərir ki, gənc jurnalist əlində heç bir fakt və dəlil olmadan, sadəcə hisslərinə güvənib qəribə bir sirri araşdırmağa başlayır. Araşdırmaları nəticəsində qarşılaşdığı şahidin dedikləri və yaşadığı ağrı-acılarını dinlədikcə heyrətdə qalır ki, uzun illər insanlardan belə bir böyük sirri necə gizlədə biliblər. Odur ki, təsadüfən aşkarladığı bu dəhşətli sirri faş etmək onun tək məqsədinə çevrilir.

Kitabdakı roman detektiv olsa da, oradakı hadisələr incə boyalarla təsvir olunduğu üçün oxucunu yormur, əksinə onu bir daha oxumaq istəyirsən. “Zülmət saçan çıraq” romanı ilə tanışlıqdan sonra tam əmin oldum ki, o söz sərrafları üçün ən qiymətli hədiyyə olacaq.

248 səhifədən ibarət olan bu kitabla müəllif üçüncü dəfədir oxucuların görüşünə gəlir. Kitabın naşiri Müşfiq Xan, redaktoru isə Əzəmət Həsənovdur.

Onu da bildirim ki, özünəməxsus yaradıcılığı ilə oxucu məhəbbəti qazanan istedadlı qələm əhliAytən xanım1985-ci ildə Sumqayıt şəhərində dünyaya göz açmışdır. Azərbaycan Jurnalistlər Birliyinin üzvü və “Qızıl qələm “mükafatı laureatıdır.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

Kredo.- 2022.- 2 fevral.- S.16.